*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyun 2020-ci il № 33 (2451) Qiymətı 30 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik



*Bu gün Azərbaycanda ordu quruculuğuna dair bütün tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Ümummilli lider Heydər Əliyev tərəfindən başladılan proses və 2003-cü ildən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün ordumuzun dünyanın ən güclü orduları sırasına daxil olmasına imkan yaradıb.*

Danılmaz faktdır ki, ordu quruculuğu prosesi müasir dönəmdə Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Onun nəticəsidir ki, son illər ərzində Azərbaycan Ordusunun maddi-texniki təminatı yüksək dərəcədə inkişaf edib. Təminat və təchizat baxımından yüksək səviyyəyə malik olan ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin mayın 28-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında qeyd etdiyi kimi, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə qadirdir. "Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi". Prezident İlham Əliyev onu da vurğuladı ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. "Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

Son illər ordumuzun ən müasir silah və sursatla təminatı, müxtəlif ölkələrdən alınmış tanklar, zirehli maşınlar, düşmənin istənilən hədəfini yüksək dəqiqliklə vurmağa qadir olan artilleriya qurğuları, pilotsuz uçuş aparatları ölkə başçısının fikirlərinin təsdiqi, həmçinin dövlətimizin gücünün göstəricisidir. Ordusunun gücünə inanan dövlət başçısı onu da bildirdi ki, bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik.

**(Ardı 4-cü səhifədə)**

# Müdafiə naziri: Ali Baş Komandan Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksək qiymətləndirir

*Mayın 30-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə xidməti müşavirə keçirib.*



Müdafiə naziri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin öz çıxışında ordu quruculuğu məsələsinə xüsusi önəm verməsi, ordumuzun istənilən vəzifəni icra edə biləcəyini vurğulaması Azərbaycan Ordusunun döyüş qabiliyyətinə verilən ən yüksək qiymətdir və bu, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini, eləcə də döyüş əzmini daha da artırıb.

Nazir bildirib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının bu fikirləri ordunun komandirləri heyəti üçün əmrdir və şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır. Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq.

Bir neçə gün əvvəl sona çatmış genişmiqyaslı əməliyyat-taktiki təlimlərin nəticələrini yüksək qiymətləndirən Müdafiə naziri əsas diqqətin şəxsi heyətin və hərbi idarəetmə orqanlarının peşəkarlıq səviyyəsinin artırılmasına, döyüş texnikasının və digər hərbi vasitələrin praktiki tətbiqinə yönəldiyini qeyd edib. O, bildirib ki, təlimlərdə qoşunlar məqsədlərə tam nail olub, şəxsi heyət döyüş əməliyyatlarının aparılması üzrə praktiki təcrübə və vərdişlər əldə edib, eləcə də səhra şəraitində yüksək bacarıq nümayiş etdirib.

General-polkovnik Zakir Həsənov təlim mərkəzlərində və poliqonlarda səhra şəraitində şəxsi heyətlə keçirilən döyüş hazırlığının, praktiki atış və müxtəlif döyüş texnikalarının idarəolunması üzrə intensiv məşğələlərin keyfiyyətinin daha da artırılmasını tələb edib.

Azərbaycan Ordusunun uğurlarının təməlində duran amillərdən birinin də şəxsi heyətin ideoloji hazırlığının yüksək və mənəvi-psixoloji cəhətdən güclü olduğunu qeyd edən Müdafiə naziri Ali Baş Komandanın tövsiyələrinə müvafiq olaraq bu istiqamətdə fəaliyyətlərin daha da genişləndirilməsi və təsirliyinin artırılmasının vacibliyini xüsusi vurğulayıb.



Müdafiə naziri bildirib: "Şəxsi heyətlə aparılan ideoloji işin müsbət nəticəsidir ki, düşmən və ona dəstək verən bəzi qüvvələr tərəfindən ordumuza qarşı aparılan kampaniyalar heç bir nəticə vermir və verməyəcək. Əminik ki, cənab Prezidentin və dövlətin dəstəyi, eyni zamanda, vətənpərvər qüvvələrin səyi nəticəsində Azərbaycan əsgərinə qarşı yönələn düşmən niyyətlər ifşa olunacaq, bu aksiyalarda iştirak edənlər qanun çərçivəsində məsuliyyətə cəlb olunacaqlar".

Müdafiə naziri diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində bu gün Azərbaycan Ordusunun hərbi-texniki potensialı xeyli yüksəlib. Bölmələrimizin Türkiyə, Fransa, İspaniya, İtaliya, İsrail, Rusiya, Belarus və hərbi sənayesi inkişaf etmiş digər ölkələrdən müasir silah və hərbi texnikalar ilə mütəmadi olaraq təchiz edilməsi ordumuzun maddi-texniki təminat baxımından düşməndən xeyli üstün olduğunu nümayiş etdirir.

Nazir müasir texniki vasitələrin tətbiqi ilə düşmən müdafiəsinin dərinliyində aktiv kəşfiyyat fəaliyyətinin davam etdirilməsi, döyüş növbətçiliyinin aparılması şəraitinin təkmilləşdirilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların tibbi təminatı və bir sıra digər məsələlərlə bağlı vəzifəli şəxslərə konkret göstərişlər verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında iclası keçirilib

*Mayın 29-da MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iştirak edib.*

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, MDB hökumət başçıları iqtisadi və humanitar sahələrdə əməkdaşlığın aktual məsələlərini müzakirə ediblər, 2030-cu ilədək Birliyin iqtisadi inkişaf strategiyası layihəsini nəzərdən keçiriblər. Şura üzvləri, həmçinin koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı mübarizədə birgə səylərə dair fikir mübadiləsi aparıblar.

İclasda çıxış edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov gündəliyə daxil edilmiş məsələlərin əhəmiyyətinə toxunub. Baş nazir koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, mövcud vəziyyətdə iqtisadiyyatın sabitliyinə mümkün təsirlərin aradan qaldırılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi məqsədilə ölkəmizdə görülən təxirəsalınmaz tədbirlərdən danışıb. Bu xüsusda MDB-yə üzv dövlətlər tərəfindən pandemiyaya qarşı birgə səylərə dair qəbul ediləcək qərarın önəmini vurğulayıb.

Baş nazir Əli Əsədov nəqliyyat sahəsinə investisiyaların yatırılması nəticəsində ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradıldığını, bu infrastrukturun onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında, həmçinin pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılmasında və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsində böyük rol oynadığını qeyd edib.

Ölkəmizin həm Birlik çərçivəsində, həm də beynəlxalq səviyyədə humanitar sahədə əməkdaşlığa böyük önəm verdiyi də qeyd edilib.

Çıxışının sonunda Azərbaycan Respublikasının Baş naziri MDB məkanında həll edilməmiş münaqişələr məsələsinə toxunub, bunun regional əməkdaşlığın və MDB məkanında daha sıx qarşılıqlı fəaliyyətin həyata keçirilməsinə başlıca maneə olduğunu bildirib.

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah məşqi keçirilib



"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, birləşmə və hissə qərargahlarının cəlb edilməsi ilə müdafiə əməliyyatına hazırlığın təkmilləşdirilməsi üzrə komanda-qərargah məşqi keçirilib.

Əlahiddə Ümumqoşun Orduda keçirilən növbəti birgə komanda-qərargah məşqində əsas diqqət, qoşunların qısa zamanda döyüşə hazırolmasının təmin edilməsi üzrə tapşırıqların icrasına yönəldilib.

Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi və resursları nəzərə alınmaqla birləşmə və hissələrin komplektləşdirilməsinin yeni bir modeli üzərində tapşırıqlar dəqiqləşdirilib.

Komanda-qərargah məşqində komandir və qərargahların yaranmış əməliyyat şəraitində qərar qəbuletmə vərdişləri təkmilləşdirilib.

**Baş leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# "The Guardian" nəşrində "Dağlıq Qarabağ və Ramil Səfərov" sərlövhəli məqalə dərc edilib

"The Guardian" nəşrində Azərbaycanın Britaniyadakı səfiri Tahir Tağızadənin "Dağlıq Qarabağ və Ramil Səfərov" sərlövhəli məqaləsi dərc edilib.

Məqalə "Azərbaycanlı zabit tərəfindən öldürülmüş erməni hərbçinin qohumları ədalət istəyir" başlıqlı xəbərə cavab olaraq yazılıb: "Dağlıq Qarabağ, Ramil Səfərovun işi ilə bağlı məqalədə istinad edildiyi kimi, "mübahisəli ərazi" deyil. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bir hissəsidir və Azərbaycanın yeddi rayonu ilə birlikdə 25 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr hələ yerinə yetirilməyib.

Ramil Səfərovun doğulduğu Cəbrayıl şəhəri də Ermənistan tərəfindən işğal edilib və o, kiçik yaşda öz yurdundan didərgin düşüb.

Onun səkkiz il həbsdə qaldığı Macarıstandan Azərbaycana ekstradisiyası qanunlara uyğun olaraq həyata keçirilib və bu, istənilən suveren dövlət başçısının öz vətəndaşını əfv etmək konstitusion hüququdur. Azərbaycan 1 milyondan çox qaçqın və məcburi köçkün əhalisi üçün ədalət axtararkən Ermənistan hərbi təcavüz yolu ilə Azərbaycan torpaqlarını işğal etməsinin əsaslarını möhkəmlətmək üçün bütün vasitə və platformalardan istifadə edir".

*Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğunun bu gün ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin hər addımda şahidi oluruq. Ordu quruculuğunda atılan hər addım döyüş qabiliyyətinin artırılmasına istiqamətlənir. Son illərdə aparılan uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. Keçirilən genişmiqyaslı təlimlərdə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərir. Bunlarla yanaşı, Aprel və Günnüt döyüşlərində təxribata əl atan düşmən üzərində qazanılan inamlı qələbə də ordumuzun gücünün və qüdrətinin bariz sübutudur.*

*Döyüş hazırlığı*

# "Topçu kimi istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindəyik"



Ordumuzun bütün bölmələrində döyüş hazırlığının artırılması istiqamətində işlər bu gün də sürətlə davam etdirilir, səmərəli məşğələlər təşkil olunur. Əsgəri xidmətə gələn gənclər bacarıqlı və hər an döyüşə hazır olan əsgərlər kimi hazırlanırlar.

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin artilleriya bölməsində keçirilən məşğələ zamanı apardığım müşahidələrə əsaslanaraq bir daha deyə bilərəm ki, bölmələrdə plana uyğun olaraq keçirilən kompleks dərslər zamanı şəxsi heyətin döyüş qabiliyyəti və bacarığı durmadan artırılır. Dərsə rəhbərlik edən təcrübəli zabit İlham Qəribovla söhbət zamanı öyrənirik ki, hazırda batareya müdafiədə tapşırıqları icra edir. Zabit şəxsi heyətin döyüşə və səfərə getmə, hədəfləri tuşlama normativlərini yerinə yetirdiyini bildirdi. "Batareyanın baş zabiti rabitə vasitəsindən tapşırığı alaraq, hesabatlar aparır və top komandirlərinə məlumatları ötürür, top heyəti hədəfi tuşladıqdan sonra batareyanın döyüşə hazır olduğu məruzə olunur. Tapşırıqların icrası zamanı bütün heyətlər yüksək hazırlıq nümayiş etdirirlər".

Söhbət əsnasında mayor İ.Qəribovun Cəmşid Naxçıvanski adına Hərbi Liseyi birinciliklə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini isə qırmızı diplomla bitirdiyini öyrənirik. Həmsöhbətim uşaq vaxtlarından televiziyadan izlədiyi hərbi vətənpərvərlik proqramlarından sonra hərb peşəsinə marağının yarandığını bildirdi. Ailəsində vətənpərvərlik və Vətənə sevgi ruhunda tərbiyə olunması da onu müqəddəs peşə sahiblərindən edir. Artilleriya ixtisasını seçməsinin də riyazi elmlərə olan həvəsindən irəli gəldiyini deyən zabit düşüncələrini bölüşdü.

"Artilleriya ixtisası riyaziyyat və həndəsə elmləri ilə sıx bağlıdır. Mənim orta məktəbdən bu fənlərə xüsusi marağım var idi. Oxuduğum sinifdə ən çətin və məntiqi misalları hamıdan birinci həll edirdim. Ona görə də bu sahədə daha yararlı olacağıma inanırdım. Müasir dövrdə döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir zabit, gizir və əsgərdən yüksək nəzəri-hərbi biliklə yanaşı, fiziki-psixoloji hazırlıq da tələb edir. Odur ki, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq hələ tam yetərli deyil. Əsas bu silahlardan istifadə qaydalarını peşəkarcasına öyrənmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli istifadə etməkdir. Hücuma hazırlıq zamanı toplardan açılan sərrast atəş döyüşün taleyini həll edir. Təsadüfi deyil ki, hələ orta əsrlərdən müharibələrdə düşmənə qarşı toplardan geniş istifadə edilib. Artilleriya imkanlarına malik ordular möhtəşəmliyi və məğlubedilməzliyi ilə seçilib. Torpaqlarımızın işğalçılardan təmizlənməsində üzərimizə böyük məsuliyyət düşür. Biz digər qoşun növlərinin səmərəli hücum strategiyasını təmin etməli, dəqiq koordinatlar əsasında düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və məntəqələrini, canlı qüvvəsini məhv etməliyik. Əminliklə deyə bilərəm ki, ordumuzun artilleriya bölmələri yüksək döyüş hazırlığına sahibdir və bu gün üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə hər an hazır və qadirik."



İzlədiyimiz dərs prosesi təcrübəli zabitin dediklərinin bir daha təsdiqi oldu. Şəxsi heyətin verilən tapşırıqların öhdəsindən bacarıqla gəldiyini gördük. Hiss olunurdu ki, artilleriya bölməsinin şəxsi heyəti gündəlik olaraq taktiki təlimləri davam etdirir, bu sahədə nəzəri-təcrübi hazırlığını mütəmadi olaraq artırır.

- Bu ixtisasın hər incəliyinə yaxşı bələdəm, çünki illər öncə ömrümün əsgərlik çağında divizionda olmuşam, - deyə baş çavuş Təbriz Gözəlov bildirdi. "Hərbi xidmət dövrünü bir həyat nümunəsi hesab edənlər haqlıdır. Məncə, bu dövr insanı müstəqil həyat üçün hazırlayan əsas məktəbdir. Təcrübəli komandirlərim, cəfakeş silahdaşlarım olub, hamısından öyrənməyə, görüb-götürməyə çalışmışam. Tabeliyimdə olan gənclərə asudə vaxtlarda əsgərlik həyatımdan, o dövrün çətinliklərindən söhbət açıram. İzah edirəm ki, belə nümunəvi, əlverişli şərait indi yaranıb, indi əsgərlərin yataqxanası müasir istilik sistemi ilə təchiz edilib, əşya-ərzaq təminatı xeyli yaxşılaşıb. Əsgərlər ev xörəklərinin həsrətini çəkmir, çünki təcrübəli qadın aşpazlar milli xörəklərimizi bişirirlər. Biz də dövlətimizin, ordu rəhbərliyinin diqqət və qayğısına cavab olaraq daim döyüş vərdişlərimizi artırmağa, hərbi xidmətdə nümunəvi olmağa borcluyuq. Bütün silahdaşlarım kimi, mən də bir hərbçi olaraq Vətənimizin xidmətində dayandığım üçün qürurluyam."

Söhbətinə davam edən baş çavuş müharibə zamanı artilleriyanın rolunun böyük olduğunu bildirdi. "Tələblərə görə artilleriya qüvvələri - toplar cəbhə xəttindən bir neçə kilometr arxada yerləşdirilir. Bu, hərbi əməliyyatların artilleriya dəstəyi ilə uğurla başa çatdırılması məqsədinə hesablanıb. Bölməmizin şəxsi heyətinin həm mənəvi-psixoloji durumu, həm də döyüş təcrübəsi yüksək səviyyədədir. Peşəkar zabitlərimiz bizə toplardan necə istifadə etməyin sirlərini öyrədir, lazımi təlimatlar, əmrlər verirlər. Ali Baş Komandan tərəfindən döyüş əmri verilən anda biz topçular öz bacarıq və peşəkarlığımızı göstərəcəyik", - baş çavuş T.Gözəlov dedi.

Tapşırıqların icrası zamanı çeviklik və bacarıq nümayiş etdirən gənc topçulara yaxınlaşıb onlarla söhbət etdik. Əsgər Zakir Eyyubov ön cəbhədə xidmət etməsindən qürur hissi keçirdiyini vurğulamaqla yanaşı, döyüşə də tam hazır olduqlarını bildirdi. "Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrini atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün onların bizə verdiyi hədəfləri sıradan çıxarmalıyıq. Əsgər kimi hərbi texnika ilə necə davranmağın sirlərini yaxından öyrənir, özümüzü döyüşə hazırlayırıq. Komandirlərimiz tərəfindən mütəmadi olaraq keçirilən məşğələlər bilavasitə atəş mövqeyində aparılır. Hər birimiz koordinatlar əsasında istənilən hədəfi dəqiq top zərbələri endirməklə məhv etməyi bacarırıq".

Digər heyət nəfəri əsgər Rüfət Yaxşıyev qısa müddətdə bacarıqlı topçu kimi formalaşdığını qeyd etdi. Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn Rüfət artilleriya sahəsində geniş bilgilərə də malikdir: "Topçu kimi lazımı istiqamətlərə atəş açaraq istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindəyik. Topçu olmaq böyük məsuliyyət tələb edir. Artilleriya döyüşün gedişinə əsas təsir göstərən hərbi qüvvədir. Burada olduğum müddətdə müxtəlif artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərinə yiyələnmişəm. Müharibə başlayarsa, sözsüz ki, əsas yük bizim üzərimizə düşəcək. Sərrast atəşlərimizlə düşməni məhv edəcəyimizə əminik", - əsgər Rüfət Yaxşıyev dedi.

Əsgərlər Səxavət Hüseynli, İbrahim Əliyev, Məhərrəm Heydərli də silahdaşlarının söhbətinə qüvvət olaraq hərbi xidmətləri dövründə hazırlıqlı əsgərlər kimi formalaşdıqlarını və istənilən anda döyüş tapşırığını icra etməyə hazır olduqlarını bildirdilər. Xidmətləri dövründə yetərincə təcrübə qazandıqlarını və döyüş texnikasının sirlərinə alışdıqlarını deyən əsgərlər, nəzəri və praktik dərslərlə yanaşı, müntəzəm keçirilən təlimlərdə səriştəli topçular kimi formalaşdıqlarını bildirdilər. "Biz çalışırıq ki, təkcə öz vəzifələrimizi bilməklə kifayətlənməyək, həm də digər silahdaşlarımızı döyüş meydanında lazım gələn anda əvəz etməyi bacaraq. Top heyətimizin döyüş tapşırıqlarını uğurla yerinə yetirməsində hər birimizin üzərinə böyük məsuliyyət düşür. Bacarıqlı komandirlərimizdən bilmədiklərimizi öyrənməyə daim səy göstəririk. Keçirilən bütün dərslərdə, təlimlərdə həvəslə iştirak edirik, çünki hər təlim döyüş hazırlığımızı üzə çıxaran əsas vasitədir. Qarşımızda dayanan əsas vəzifəni yerinə yetirməyə - torpaqlarımızı işğaldan azad etməyə qadirik", - əsgərlər dedilər.



Döyüş hazırlığının artırılmasında əsas meyar olan təlim və məşğələlər şəxsi heyətə hərbi vərdişlər aşılamaqla bərabər, həm də qələbəyə əminlik hisslərini artırır. Əminliklə deyə bilərik ki, bu gün ordu sıralarında döyüş sirlərinə yiyələnən gənclərimiz Vətənin çağırışına səs verməyə hər an hazırdırlar.

**Baş leytenant Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik



**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifələr işğal altındakı torpaqlarımızın azad edilərək ərazi bütövlüyümüzün bərpa olunması, döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, qoşunların operativ idarə olunması, silahlanmaya yeni qəbul edilmiş hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrənilməsi və tətbiqi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsindən ibarətdir.

Ölkə Prezidenti İlham Əliyev bütün çıxışlarında Azərbaycanın münaqişənin həllində sülh danışıqlarına üstünlük verdiyini, eyni zamanda, işğal faktının aradan qaldırılması üçün hərb variantının da gündəmdə olduğunu dilə gətirib. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması üçün hər bir addım atılır. Heç təsadüfi deyil ki, ölkəmiz dünyanın ən güclü orduya malik ölkələri sırasındadır. Azərbaycan Ordusunun gücü, qüdrəti, hazırlığı, döyüş qabiliyyəti gündən-günə artır. Bu baxımdan da Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 30-da Mərkəzi Komanda Məntəqəsində son xidməti müşavirədə bir daha Azərbaycan Ordusunun, Azərbaycan dövlətinin gücünə, qüdrətinə arxalanaraq, müəyyən fikirləri qətiyyətli və birmənalı şəkildə bəyan edib.

Müdafiə naziri diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində bu gün Azərbaycan Ordusunun hərbi-texniki potensialı xeyli yüksəlib. Bölmələrimizin Türkiyə, Fransa, İspaniya, İtaliya, İsrail, Rusiya, Belarus və hərbi sənayesi inkişaf etmiş digər ölkələrdən müasir silah və hərbi texnikalar ilə mütəmadi olaraq təchiz edilməsi ordumuzun maddi-texniki təminat baxımından düşməndən xeyli üstün olduğunu nümayiş etdirir.

Müdafiə naziri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışında ordu quruculuğu məsələsinə xüsusi önəm verməsi, ordumuzun istənilən vəzifəni icra edə biləcəyini vurğulaması Azərbaycan Ordusunun döyüş qabiliyyətinə verilən ən yüksək qiymətdir və bu, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini, eləcə də döyüş əzmini daha da artırıb.



Nazir bildirib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının bu fikirləri ordunun komandir-rəis heyəti üçün əmrdir və şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır. Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq.

**"Azərbaycan Ordusu"**

## İyunun 1-dək Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyunun 1-dək 110 milyon 847 min 750,32 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## "La Vanguardia": Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsi üçün güc işlətməyə hazırdır

İspaniyanın populyar "La Vanguardia" qəzeti Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun işğal olunmuş ərazilərin azad edilməsinə dair bəyanatı ilə bağlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə nazirin bəyanatına əsasən, Ermənistan silahlı qüvvələri tərəfindən 1991-1994-cü illər ərzində işğal edilmiş ərazilərin geri qaytarılması üçün Azərbaycanın Müdafiə Nazirliyinin güc tətbiq etməyə hazır olduğu qeyd edilir. Qəzetdə general-polkovnik Zakir Həsənovun bu sözləri sitat gətirilir: "Ermənistanla yalnız güc dili ilə danışmaq mümkündür və bu iki ölkə arasında növbəti qarşıdurma düşmənin tamamilə darmadağın edilməsi ilə nəticələnəcək".

"Bizim görəcəyimiz tədbirlər 2015, 2016 və 2018-ci illərlə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq", - deyə regionda son gərgin vəziyyətə münasibət bildirən Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan edib.

Məqalədə Azərbaycanda ötən həftə keçirilmiş genişmiqyaslı hərbi təlimlərin Müdafiə naziri tərəfindən yüksək qiymətləndirildiyi, Ermənistan tərəfindən isə mühakimə edildiyi qeyd olunur.

"La Vanguardia" diqqəti 1980-ci illərin sonlarında Ermənistan və Azərbaycan arasında başlanmış Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistan ordusu tərəfindən Dağlıq Qarabağın, həmçinin "təhlükəsizlik zolağı" adlandırılan geniş ərazinin işğal edilməsinə yönəldib. Məqalədə, həmçinin işğal olunmuş ərazilərin BMT-nin qətnamələrinə müvafiq qaydada azad edilməsi Azərbaycanın münaqişənin həllində əsas şərt kimi vurğulanıb.

### *Nümunəvi xidmət*

# Ordumuz qələbə qazanmağa qadir ordudur

*Bu gün torpaqlarımızın keşiyində dayanan, komandirlərin əmr və tapşırıqlarını layiqincə yerinə yetirən, xalqımızın iradəsinə, dəyərlərinə hörmətlə yanaşan, şəhidlərimizin ruhu qarşısında özünü borclu hesab edən, dövlətimizə və dövlətçiliyimizə layiqli xidmət edən əsgərlərimiz çoxdur. Belə əsgərlərdən biri də Ağalar Abdulrəhmanovdur.*



Təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmət edən Ağalar qar-yağış, soyuq-isti demədən düşmən mövqeyini hər an nəzarət altında saxlayan əsgərlərimizdəndir. Onu yaxından tanımaq üçün həmsöhbət olduq.

"Döyüş növbətçiliyində səngərdən qarşı tərəfə baxarkən nə düşünürsən?" - deyə əsgərə sual verdik.

Əsgər A.Abdulrəhmanov gözlərini nişangahdan ayırmadan sualımızı cavablandırdı: "Heç zaman güman etməzdik ki, torpaqlarımızda yer verdiyimiz, süfrəmizi bölüşdüyümüz, qonşu hesab etdiyimiz ermənilər Azərbaycan torpaqlarına qəsd edəcək. Şuşanın, Xankəndinin, Ağdamın, Xocalının küçələrində silahlar işə düşəcək, analarımız, bacılarımız gözüyaşlı qalacaq. Bu əməlin bir adı var - xəyanət! Xəyanət isə bağışlanmır, bağışlanmamalıdır! Biz xalqımıza qarşı törədilən xəyanəti bağışlamayacaq, torpaqlarımıza uzanan əlləri kəsib atacağıq. Əminliklə deyə bilərəm ki, ordumuzda torpaqlarımızın azadlığı uğrunda canı və qanı bahasına mübarizə aparmağa hazır olan, şəhidlərimizin ruhunu hər zaman uca tutan, Vətənin bütövlüyü uğrunda mübarizədə əvəzsiz rol oynayan qəhrəman Azərbaycan oğulları çoxdu. Mübarizlərin, Fəridlərin, Çingizlərin davamçıları kimi imkan verməərik ki, torpaqlarımız işğal altında qalsın."

Əsgər danışdıqca gözləri alovlanır, düşmənə olan nifrəti açıq-aydın hiss olunurdu. Nə qədər ki, qorxmaz, cəsarətli, ürəyi Vətən sevgisiylə döyünən əsgərlərimiz var, əminliklə deyə bilərik ki, müharibə tezliklə arzusunda olduğumuz Qələbə ilə sona çatacaq. Yalnız onda biz şəhidlərimizin ruhu qarşısında borcumuzu yerinə yetirmiş olacağıq. Bu gün Azərbaycan əsgərinin bir istəyi, bir amalı var - Böyük Qələbənin tezləşməsi, xalqımıza qələbə sevincini yaşadan əsgər olmaq! Ordumuz qələbə qazanmağa qadir ordudur. Bu gün ordumuzun maddi-texniki təminatı ilə yanaşı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Əsgərlərimizdə olan döyüş ruhu onu deməyə əsas verir ki, qələbə heç də uzaqda deyil. Aprel döyüşlərində və Günnüt zəfərində bunun bir daha şahidi olduq. Bu gün hər bir Azərbaycan əsgəri Ali Baş Komandanın "İrəli" əmrini səbirsizliklə gözləyir.

**Leytenant
Oruc MUSTAFAYEV,
"Azərbaycan Ordusu"**

## Yalan danışmaq deputata yaraşmaz

Mayın 31-də Milli Məclisin növbəti iclasında millət vəkili Vahid Əhmədovun Müdafiə nazirinin ünvanına səsləndirdiyi fikirlər yalandır və həqiqəti əks etdirmir.

Bildiririk ki, son bir ildə Müdafiə naziri heç bir brifinqdə iştirak etməyib və ona Şuşa ilə bağlı heç bir sual verilməyib.

Millət vəkilinə xatırladırıq ki, "Azərbaycan Respublikasının Müdafiə haqqında Qanunu"nun 4-cü maddəsinin müvafiq bəndinə əsasən "müharibə elan edilməsinə və sülh bağlanılmasına razılıq" verilməsi Milli Məclisin səlahiyyətləri çərçivəsindədir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Silah gücü düşmənlə danışılacaq yeganə dildir"

Azərbaycan Ordusu işğal olunmuş əraziləri azad etmək üçün güc tətbiqi hüququndan mütləq istifadə edəcək.

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Qeyd edilib ki, görüləcək tədbirlər 2015-ci, 2016-cı və 2018-ci illərdəki ilə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq. Düşmən böyük itkilər verəcək və bu da öz növbəsində, onun tamamilə məğlubiyyətinə gətirib çıxaracaq.

"Düşmənlə danışmağın yeganə dili silah gücüdür və biz bundan istifadə edərək Ermənistanın işğalçı qüvvələrini ərazilərimizin hüdudlarını tərk etməyə məcbur edəcəyik. Azərbaycan əsgəri silahının gücü ilə buna mütləq nail olacaqdır", - deyə nazirliyin açıqlamasında bildirilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**2 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan HHQ-nin aviasiyası döyüş atışlı taktiki-uçuş təlimləri keçirib

*Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) cəbhə və ordu aviasiyasının döyüş atışlı taktiki-uçuş təlimləri keçirilib.*



Hərbi pilotların döyüş bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə keçirilən təlimlər çərçivəsində HHQ-nin döyüş aviasiyasının təyyarəçiləri praktiki atışlar icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, pilotlar hava hücumundan müdafiə vasitələrindən yayınaraq və ərazinin relyefindən istifadə edərək müxtəlif yüksəkliklərdə manevr etməklə şərti düşmənin döyüş mövqelərini bombardman ediblər. Bununla yanaşı, şərti düşmənin komanda və müşahidə məntəqələri, artilleriya atəş mövqeləri, müşahidə postları, habelə zirehli maşınlarını təqlid edən tək və qrup hədəfləri məhv edilib.

Təlimlər zamanı pilotlar şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin etməklə hava kəşfiyyatı da həyata keçiriblər.

## "Ermənistanın Qarabağdakı oyunlarının cəzası ağır olacaq"

*HABER TÜRK saytı 28 May - Respublika Günü münasibətilə ölkəmizin Ankaradakı səfiri Xəzər İbrahimin geniş müsahibəsini yayıb.*

AZƏRTAC xəbər verir ki, tanınmış jurnalist, professor Kürşad Zorlu tərəfindən hazırlanan müsahibənin girişində ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsi xatırlanır və türkdilli oxuculara Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, dünya birliyi tərəfindən tanınması, Qafqaz İslam ordusunun tarixi missiyası, həmçinin 1991-ci ildə dövlət müstəqilliyimizin bərpası prosesi, Prezident İlham Əliyevin Sərəncamına əsasən 2018-ci ilin respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olması və digər mühüm məsələlərlə bağlı məlumat verilir.

Müsahibədə COVID-19 infeksiyasına qarşı Azərbaycanda aparılan sistemli mübarizə, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü əsasında Türkiyədə çalışan azərbaycanlı həkim-mütəxəssislərin infeksiya ilə bağlı ölkəmizə getməsi, Azərbaycan-Türkiyə münasibətləri, türk dünyasının həmrəyliyinin əhəmiyyəti, ölkəmizdə həyata keçirilən uğurlu islahatların inkişafa təsiri, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti ilə bağlı mühüm məqamlara toxunulub.

## "Ordumuz torpaqlarımızı düşmən işğalından azad etməyə tam hazırdır"





Bu gün Azərbaycan Ordusunu möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox aktual fikirlər səsləndirməklə yanaşı, Azərbaycanın ordu quruculuğundan da bəhs edərək deyib: "Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik... Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır". Göründüyü kimi, Azərbaycan Prezidentinin cavabı qətidir - məsələ yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası şərti ilə tam həllini tapa bilər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə keçirilən son xidməti müşavirədə dövlətimizin başçısının sözlərinə istinad edərək bildirib ki, "Silahlı Qüvvələrin Ali Baş Komandanının bu fikirləri ordunun komandir-rəis heyəti üçün əmrdir və şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır. Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq".

Müdafiə nazirinin bu açıqlaması "qırmızı xətti" aşan, uydurma "seçkilər" və "andiçmə" mərasimi keçirən işğalçı ölkənin rəhbərliyinə sərt xəbərdarlıqdır. Nazirin də qeyd etdiyi kimi, Azərbaycan Ordusunun bu dəfə atacağı addımlar işğalçı ölkənin məhvinə səbəb olacaq. Xüsusilə, son illərdə Azərbaycanda ordu quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər bunu deməyə əsas verir. Ordumuz ən müasir silah və hərbi texnika ilə təchiz edilib.

Azərbaycan Ordusu tərəfindən keçirilən genişmiqyaslı təlimlər işğalçı ölkəni təşviş içərisində saxlayır. Azərbaycan Ordusunun vahid komandanlıq altında idarə olunması, əsgərinin cəsarəti, müasir texnikalar, güclü və yeni silahlar - bunların hər biri Ermənistan ordusu üzərində tam əminliklə qələbə qazanmağımıza dəlalət edir.

Ordumuz torpaqlarımızı düşmən işğalından azad etməyə tam hazırdır. Biz yaxın vaxtlarda münaqişə ilə bağlı vəziyyətin sülh yolundan digər məcraya keçəcəyinin şahidi ola bilərik. Düşmənə qarşı irimiqyaslı tədbirlərin görülməsi artıq qaçılmazdır. Ermənistan tərəfinin təxribat xarakterli bəyanatları ölkəmizi buna vadar edir. Çünki Ermənistan rəhbərliyi bu cür məsuliyyətsiz hərəkəti ilə Azərbaycan tərəfinə başqa seçim qoymur. Nəyin bahasına olursa-olsun, gec-tez ədalət bərpa ediləcək. Bütün bunlar Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının həyata keçirdiyi daxili və xarici siyasəti, Azərbaycan Ordusunun və xalqımızın qətiyyətli iradəsi nəticəsində baş verəcək.

**Ehtiram AŞIRLI, analitik**

AZƏRBAYCAN ORDUSU

# Qələbəmiz bəşərilik qələbəsi olacaq

*Qəhrəmanlar mənsub olduğu xalqın, dövlətin və bəşəriyyətin rifahı üçün əlindən gələni edən, bu yolda canından keçməyə hazır olan insanlardır. "Vətənə və bəşəriyyətə necə faydalı ola bilərəm?" düşüncəsi ilə yaşayan hər bir insan məqamında qəhrəman ola bilər. Görülən işin nə qədər faydalı olduğunun göstəricisi isə aparılan çalışmanın insan həyatına, bəşəriyyətə müsbət təsiri ilə ölçülür. Bu mənada, insanlıq əleyhinə törədilmiş cinayətləri dünya ictimaiyyətinə aydınlatmaq da bəşəriyyət qarşısında dəyərli xidmət sayılır. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin ölkəmizə və bəşəriyyətə xidməti, istər Şuşada, istər Laçında, istərsə də Xocalıda çəkdiyi kadrlar bu baxımdan çox dəyərlidir.*




Zabit Seyidağa Mövsümlü Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun müdaxiləsi ilə Xocalıda öldürülənlərin nəşinin götürülməsi prosesində iştirak edib, orada neçə saatlarla video-çəkilişlər aparmışdı. İstər bu kadrlar, istərsə də Çingiz Mustafayevin Xocalı faciəsi ilə bağlı lentin yaddaşına köçürdüyü kadrlar sonralar neçə-neçə filmimiz üçün canlı materiala çevrildi və bu gün hər iki operatorun çəkdiyi həmin kadrların yer aldığı filmlər Xocalı soyqırımı haqqında həqiqətləri dünyaya çatdırır.

1992-ci il fevralın 26-da ermənilərin törətdiyi Xocalı soyqırımını hər iki operatorun videoya köçürməsi, dünya ictimaiyyətinə çatdırması xalqımıza qarşı törədilən soyqırımını təsdiq edən tarixi faktlardır.

Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olan Xocalı soyqırımı təkcə xalqımıza yox, bütün bəşəriyyətə qarşı törədilən ən qəddar cinayətlər siyahısında yer alır. Bu faciə həm də əsrlər boyu ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların daha bir dəhşətli təzahürüdür.

Xocalı faciəsi Azərbaycan tarixində, xalqımızın yaddaşında dərin iz qoyub. 28 il ötməsinə baxmayaraq, faciənin ağrı və acısı hələ də qəlbimizdə yaşayır. Bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılması hər kəsin vətəndaşlıq borcudur və hər birimiz üzərimizə düşən bu missiyanı layiqincə yerinə yetirməliyik.

Seyidağa Mövsümlünün və Çingiz Mustafayevin çəkdiyi kadrlar dünya ictimaiyyətinə Azərbaycanda beynəlxalq hüquq normalarının kobud şəkildə pozulduğunu əyani olaraq göstərdi. Bu kadrlar sübut etdi ki, erməni terroru insanlıq əleyhinə, bəşəriyyətə qarşı yönəlib. Bu kadrlar Xocalı soyqırımının azərbaycanlılara, türklərə və yaxud müsəlmanlara qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayət olduğunu açıq-aşkar sübut edir.

O dönəmdə erməni silahlılarının rəhbəri olan Serj Sarkisyan ingilis jurnalisti Tomas de Vall ilə olan müsahibəsində günahsız insanları kütləvi şəkildə öldürdüklərini açıq şəkildə bildirmişdi.

Təkcə Azərbaycanda deyil, dünyanın tolerant dövlətlərində də bu dəhşətli cinayətə sərt reaksiya veriləcəyi və cinayətkarların cəzalandırılacağı gözlənilirdi. Belə olmadı. Dünya ictimaiyyəti reallığı ya görmədi, ya görmək istəmədi - susdu. Görünən mənzərə bu idi: hələ Xocalı faciəsinə qədər də Azərbaycan informasiya blokadasında saxlanılır, insanlar məcburi köçə məruz qalır və etnik təmizləmə aparılır. Çingiz Mustafayev kimi cəsarətli jurnalistlərin, peşəkar operator Seyidağa Mövsümlünün beynəlxalq arenaya təqdim etdikləri dəhşətli faktların ya üstü örtülürdü, ya da onlar adiləşdirilərək unutdurulmağa çalışılırdı. Bu kadrlar indi xronikadır, ancaq tarixdir. Bu tarixi kadrlar Xocalı faciəsini dünyaya nümayiş etdirərək bəşəriyyəti insanlıq naminə tədbir görməyə çağırırdı. Dünya dövlətləri və beynəlxalq təşkilatlar isə susur və fəaliyyətsiz qalırdı. Bununla, Ermənistanın həyata keçirdiyi terror siyasətinə, vandalizmə, etnik təmizləməyə, soyqırıma, islamofobiyaya və transmilli cinayətkarlığa beynəlxalq səviyyədə qeyri-rəsmi bəraət-dir. Məşhur rusiyalı politoloq və hüquqşünas alim Oleq Yuryeviç Kuznetsovun "XX əsrdə transmilli erməni terrorizmi. Tarixi-kriminoloji tədqiqat" kitabında 1990-cı illərdə siyasi karyerasını terrorun üzərində quran şəxslərin Ermənistanı idarə etməyə başladığını qeyd etmişdi. Yəni, separatçı silahlı dəstələrin Robert Köçəryan və Serj Sarkisyan kimi liderləri və azərbaycanlı əhaliyə qarşı qətllər törədən qatillər beynəlxalq ictimaiyyətin gözü qarşısında nüfuzlu vəzifələrə, hətta dövlət rəhbəri vəzifəsinə seçildilər. Dolayısı ilə, insanlıq əleyhinə cinayətlərə görə Ermənistan beynəlxalq miqyasda qınanılmadığından, belə cinayətlər dövlətin dövlətçilik mexanizminə hopurdu.

Dünyada Xocalı faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə verildi.

2008-ci ildə Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası başladıldı. Bu günə qədər Birləşmiş Millətlər Təşkilatına üzv olan 9 dövlət, həmçinin 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı kimi tanımışdır. Dövlətlər beynəlxalq müstəvidə baş verən hadisələrə siyasi qiymət verməməklə, özlərinin "dövlət maraqları"nı nəzərə alırlar. Bəşəriyyət əleyhinə bu və ya digər qlobal hadisəyə vaxtında və adekvat qiymət verib zəruri tədbirlər görməmək bu cinayətin növbəti cinayətlərə başlanğıc olacağına zəmin deyilmi? Bu laqeydlik heç də həmişə həmin dövlətin maraqlarına uyğun olmur. Qətliamlara və ədalətsizliyə göz yuman dövlətlər bu və ya digər formada bəşəri cinayətlərin ağır nəticələri ilə qarşılaşırlar. 1918-ci ildə Birinci Dünya müharibəsi bitdikdən sonra Almaniyada nasional sosializm hərəkatı sürətlə populyarlıq qazandı. O zamankı aparıcı dövlətlər bu gedişata ya məhəl qoymayaraq qabaqlayıcı tədbirlər görmədi, ya da müxtəlif yollarla ona dəstək verdilər. Müəyyən müddət keçdikdən sonra Almaniya militarist və işğalçı siyasət həyata keçirməyə başladı. Nəticədə, Almaniya tərəfindən Avropanın böyük bir hissəsi işğal edildi, Holokost soyqırımı törədilməklə milyonlarla insan öldürüldü.

Əslində, faşist Almaniyasının işğalçılıq siyasəti, eləcə də törətdiyi Holokost soyqırımı ilə Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti və Xocalı soyqırımı arasında paralellər və bənzərlik mövcuddur. Fərq ondadır ki, gec də olsa Almaniyanın dağıdıcı siyasətinə son qoyuldu, faşizm məğlub edildi, insanlıq əleyhinə cinayət törədən alman faşistləri Beynəlxalq Hərbi Tribunada mühakimə olundular. Cinayətkar Ermənistana qarşı isə hələlik heç bir addım atılmamışdır. Hərçənd, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və törədilən qətliamlar mövcud olan bütün beynəlxalq qanun və normaların, o cümlədən Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinin, Beynəlxalq Hüquq Prinsiplərinin, ATƏT-in Helsinki Yekun Aktının və Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Digər tərəfdən, təcavüzkar siyasət yürütməsinə baxmayaraq, Ermənistanın cəzasız qalması dolaşıq siyasi gümanlar yaradır. Burada diqqəti cəlb edən məqam isə beynəlxalq qanunların və Cenevrə Konvensiyalarının ruhunda var olan humanizm fəlsəfəsinin iflasa uğraması və yaxud uğradılmasıdır. Bununla bərabər, dünya ictimaiyyəti Ermənistanın təcavüzkar siyasəti və Xocalı faciəsinin acı nümunəsi üzərindən yeni münaqişələrin xarakteristikasını və inkişaf dinamikasını öyrəndi. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi konseptual mövqedən nəzərdən keçirilərsə, onun nəzəri əsasının bir çox Avropa ölkələrindəki, o cümlədən keçmiş Yuqoslaviyadakı siyasi münaqişələr (məsələn, Kosovo münaqişəsi) üçün təməl təşkil etdiyi görünər. Dünya Xocalı soyqırımından bir müddət sonra 1994-cü ildə Ruanda soyqırımı, 1995-ci ildə Bosniya və Herseqovinada Srebrenitsa soyqırımı ilə üzləşdi və nəhayət, 2001-ci ildə Birləşmiş Ştatlar terror hücumuna məruz qaldı. Bununla da, araşdırmalara mövzu ola biləcək modern konfliktologiya dövrü sayılan "Terrorizmlə Qlobal Müharibə" dövrü başladı.

Seyidağa Mövsümlünün və Çingiz Mustafayevin çəkdiyi kadrlar dünya ictimaiyyətini Azərbaycan həqiqətləri barədə məlumatlandırmağa yardımçı olan, yeni çağda bəşəriyyəti gözləyən fəlakətlərin qarşısının alınması zərurətinə çağırışdır. Onlar öz peşəsi ilə sülh və əmin-amanlığın bərqərar olmasına töhfə verdi.

Dünya ictimaiyyəti Xocalı soyqırımından çəkilmiş kadrlara laqeyd yanaşmaqla, daha sonra baş verəcək qətliamlar üçün şərait yaratdı və qlobal terrorizmin qarşısının alınmasında vəsilə olmadı. Digər tərəfdən, erməni terrorizminin dəst-xətti post-bipolyar dövrdə dünyanın idarə edilməsi "dəsturunun" içinə hopararaq dünyada yeni münaqişələrin baş tutmasına imkan verdi. Əgər Azərbaycan Respublikasının ədalətli mübarizəsinə vaxtında və beynəlxalq səviyyədə dəstək verilsəydi, yəqin ki, dünya bu gün daha təhlükəsiz və firavan olardı. Hər birimiz bilirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində Ermənistanın törətdiyi faciələr haqqında informasiya dünya ictimaiyyətinə ən uca kürsülərdən çatdırılır. Əminik ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın Azərbaycan xalqına qarşı yürütdüyü təcavüzkar siyasət dayandırılacaq, beynəlxalq hüquq normalarına uyğun olaraq, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal altında olan torpaqlarından qeyd-şərtsiz çıxarılacaq. Belə olmasa, torpaqlarımızı Ali Baş Komandanın döyüş əmriylə azad edəcəyik. Bununla da, beynəlxalq qanunların aliliyi təmin ediləcək, Azərbaycanın tarixi qələbəsi bəşəriliyin qələbəsi olaraq bütün münaqişələrin həll olunmasına nümunə olacaq.

**Mayor**
**Nicat MƏMMƏDOV,**
**Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi**

# Müddətli həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb

Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən keçirilən həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, Xidmət tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi may ayı ərzində müvəffəqiyyətlə yekunlaşdırılıb.

Məlum olduğu kimi, koronavirus infeksiyasının (COVID-19) Azərbaycan Respublikasının ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması üçün xüsusi karantin rejimi tətbiq edilib və ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə həyata keçirilən təxirəsalınmaz tədbirlər çərçivəsində müddətli həqiqi hərbi xidmətə çağırılan gənclərin sağlamlığı ilə bağlı mümkün risklərə yol verilməməsi məqsədilə 2020-ci ilin aprel çağırışının müddəti mayın 31-dək uzadılıb.

Xatırladaq ki, 2020-ci il mayın 1-dən etibarən çağırışçıların müəyyən edilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsinə başlanılıb.

Prezident İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq 2002-ci ildə doğulmuş və 2020-ci il aprelin 30-dək 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il mayın 31-dək müddətli həqiqi hərbi xidmətə yola salınıblar.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasında 2020-ci ilin may ayında müddətli həqiqi hərbi xidmətə göndərilən çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı SHXÇDX tərəfindən aprelin 22-də SMS vasitəsilə məlumatlandırılıblar.

# "Uşaqlar bizim gələcəyimizdir..."

*Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır".*

Bu kəlam Azərbaycanın bəşəri dövlət olaraq 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününün mahiyyətinə münasibətini ifadə edir. Cəmşid Naxçıvanski adına Hərbi Lisey də bu müdrik kəlamın işığında fəaliyyətə başladı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir". Bu siyasətin mahiyyəti çağırışçıların, nəticə etibarilə əsgərlərin vətəndaş kimi formalaşması deməkdir; dövlətin uşaq siyasətiylə bir vaxtlar bu gün ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlər də əhatələnib. Dövlətin digər qayğılarıyla bir sırada bu siyasətin kəramətiylə də Vətənə məhəbbət ruhunda formalaşan xidmət etdiyi ordu bəşəri ordu olur. Azərbaycan Ordusu belə ordudu. Azərbaycan Ordusu həm dövlətin ərazi bütövlüyünü qoruyur, həm də Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcək. Belə bir milli-xəlqi dövlətçilik missiyasını böyük məsuliyyətlə, dövlətə, dövlətçiliyə sədaqətlə yerinə yetirən Azərbaycan Ordusu əhalini, bu baxımdan uşaqları müdafiə edir. Deməli, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü həm də digər bəşəri missiyalı ordular sırasında Azərbaycan Ordusuna ehtiram günüdür. Ermənilərin Azərbaycandan ərazi iddiası, Moskvanın bu iddiaya münasibəti, ən dürüstü bu iddianı dəstəkləməsi Azərbaycanda milli-azadlıq hərəkatını genişləndirdi.

1988-ci il fevralın 2-də Xankəndidə vilayətin ancaq erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar, qeyri-qanuni iclasında Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında müraciət qəbul edildi. Fevralın 22-də minlərlə silahsız azərbaycanlı Ağdamdan Əsgərana tərəf yürüş etdi. Ermənilər mitinqə çıxanlara atəş açdılar. İki uşaq - Əli ilə Bəxtiyar şəhid oldu...



Xocalı mühasirədəydi...

Ermənilər fevralın 26-da dislokasiya yeri Xankəndi olan 366-cı alayın iştirakı ilə Xocalıda qırğın törətdi. 63 uşaq xüsusi amansızlıqla qətlə yetirildi.

Əli ilə Bəxtiyar qətlə yetirildiyinə görə dinməyən Dünya bəşəri Dünya olsaydı, Xocalıda ermənilər 63 uşağı qətlə yetirəndə dillənərdi. Onda "arşını əyilmiş dünyada" Uşaqların Beynəlxalq Müdafiəsi Günü niyə və nəyə təsis edilib? İnsanlığı və insanları sevənlər bu günün təsis edilməsini illərdi alqışlayır, belə faktlara görə dünyanı qınayır. Onu da xatırladır ki, bəşər ildə bir gün - iyunun 1-də deyil, 365 gün uşaqların müdafiəsinin mənəvi cəfakeşi olmalıdır. Dünyanı sıxıntılardan 1 iyunun mənəvi cəfakeşi olanlar xilas edəcək. Ondan sonra heç kim "mən belə dünyanın nəyindən küsüm?" deməyəcək. Uşaqların müdafiəsinin mənəvi cəfakeşi olmayanlar görəsən "Biz qayıdacağıq" filminə baxıbmı? Ecazkar səsiylə heyrət ünvanı olan məktəbli Zakirin Musiqi Akademiyasına deyil, Ali Hərbi Məktəbə getdiyinin mahiyyətini dərk edincə, yol boyunca onun iç dünyasının səsini eşidincə xəcalət çəkirmi? Murad ("Ağ atlı oğlan") onlara tarixi tarix "dərsi verəndə" özünü qınayırmı? Bilmirmi ki, bu yaşda uşaq hərbçilərin ciddi cəhdinə, tələbinə baxmayaraq döyüşçülərin sırasındadırsa, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımız işğaldan azad ediləcək. Bu, şəhidlərin, bu sıradan şəhidlərin uşaqlarının ruhuna gözaydınlığı olacaq.

1993-cü ilin yayında Zəngilan böyük bir xəyanətə ünvan olmuşdu: Bakıdan rayonun əhalisinin köçürülməsi üçün yüzlərlə yük maşını göndərilmişdi. Ordunun və fəal ictimaiyyətin dönməz müdaxiləsiylə təxribatın qarşısı alındı, qısa müddətdə təbliğata uyub gedənlər də qayıtdı (Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin xronikasında dəyərli tarixi kadrlar var). Onda Qıraq Müşlan kəndində 10-12 yaşlı Əfsanədən eşitdiklərimi xatırlayıram:

- Qaçanlar niyə qaçır, hara qaçır? Ocaqları sönməyəcəkmi, ev-eşiyinin divarları çatlamayacaqmı? İtləri zəncir çeynəyə-çeynəyə, ulaya-ulaya acından ölməyəcəkmi? Peşiman olub geri dönəndə həyət-bacaları onları yaxın almayacaq, yad kimi çəpər dalından baxacaqlar...

Onda bir daha əmin oldum ki, müharibə illərinin uşaqları yaşından tez böyüyür...

Ermənistanın Azərbaycana qarşı elan etmədən apardığı müharibə başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq.

Ermənistan "arabanın kölgəsini geniş görüb" atəşkəsi hər gün dəfələrlə pozur. Belə təxribatların qarşısı qətiyyətlə alınsa da, bəzən mülki əhalidən də düşmən gülləsinə tuş gələn olur. Bəzən uşaqlar da.

2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı qəsəbəsində 16 aylıq Zəhra düşmən mərmisindən həlak oldu. Dünya yenə səsini çıxartmadı. Bəlkə 2020-ci ildə haqqın, ədalətin əsgəri ola, bəşərilik naminə işğalçıya (işğalçılara) "Dayan!" ("Dayanın!"), "Dur!" ("Durun!") deyə, uşaqların müdafiəsinin cəfakeşi ola?!

Görən Dünya niyə unudub ki, "davadan söz düşəndə qəlbi alovlanan anaların" harayını eşitməmək günahdı? Unutmasın ki, bu mənəvi-psixoloji günahdan həm də uşaqların müdafiəsinin gərəkliyini yaşam fəlsəfəsi bilməklə qurtula bilər...

...Azərbaycan əsgərinin döyüş növbətçiliyinin mahiyyəti deyir ki, biz Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik, xidmətdə olanda da, tərxis olunduqdan sonra da Azərbaycanın, eləcə də bəşəri dövlətlərin uşaqlarının müdafiəsinin əsgəri olacağıq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Tovuzda bir ədəd 82 mm-lik minaatan mərmi aşkarlanıb



*Mayın 30-da saat 18:17-də Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Tovuz rayonu, Əlibəyli kəndi ərazisindən keçən çayın kənarından 1 ədəd mərminin tapılması barədə məlumat daxil olub.*



ANAMA-dan AZƏRTAC-a bildirilib ki, məlumata əsasən, agentliyin xüsusi mobil çevik əməliyyat və partladıcı axtaran xüsusi təlim keçmiş itlərdən ibarət kinoloji qrupları, Daxili İşlər Nazirliyinin Tovuz rayon Polis Şöbəsinin və Mərkəzi Xəstəxanasının əməkdaşları dərhal həmin əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri və Tovuz rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən birlikdə yuxarıda adı qeyd olunmuş əraziyə baxış keçirilib. Təhlükəsizliyi təmin etmək məqsədilə ərazi polislər tərəfindən mühasirəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təcili təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 1 ədəd tərkibində partlayıcı maddə olmayan (boş) 82 mm-lik minaatan mərmi (O-832) aşkar olunaraq agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.

Minaatan mərmisinin ətrafında 100 kv.m əraziyə yerüstü baxış keçirilib, heç bir təhlükəli əşya və qurğu aşkarlanmayıb.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində cinayət hadisəsi baş verib. Mülki qohumları ilə əlbir olan hərbi qulluqçu tərəfindən 6 nəfər erməni zabiti döyülərək xəstəxanalıq edilib.

Düşmən ordusunun 5-ci dağ atıcı alayının, 2-ci taborunun "zampoliti" Hamik Simoniki vəzifə səlahiyyətlərini aşıb. O, hərbi hissədə kəşfiyyat taqım komandiri vəzifəsində xidmət edən baş leytenant Narek Hovanisyanı təhqir edərək alçaldıb. Bundan hiddətlənən baş leytenant "zampolitdən" qisas almağa yardım etmək üçün Əsgəran rayonunda yaşayan qardaşı Ara Hovanisyana zəng edib. O isə öz növbəsində Xankəndində olan dostlarını köməyə çağırıb və söyüş söyən zabiti cəzalandırmaq məqsədilə taborun qərargahına gəlib.

Baş verən kütləvi dava nəticəsində müxtəlif dərəcəli xəsarətlər alan zabit H.Simoniki təcili olaraq Xankəndi hospitalına təxliyə edilib. Ondan başqa taborun qərargah rəisi və daha dörd zabit mülki şəxslər tərəfindən döyülüblər.

Hazırda hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində koronavirus infeksiyası ilə bağlı karantin elan edildiyi bir vaxtda hərbi hissənin tibb xidmətinin yarıtmazlığı və tibbi təminatın zəif olması səbəbindən şəxsi heyət daha bir bəla ilə üzləşib.

İşğal edilmiş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən düşmən ordusunun 6-cı dağ atıcı alayının 3-cü taboru və 5-ci təlim taborunun şəxsi heyəti arasında kütləvi dizenteriya yayılıb. Xankəndidən hərbi hissəyə təcili ezam edilən həkim briqadasının gəldiyi nəticəyə əsasən, 5-ci təlim taborunun şəxsi heyətinin 80 faizi, 3-cü taborun isə 40 nəfər əsgəri xəstəliyə yoluxub.

Məlum olub ki, hərbi hissə komandanlığı şəxsi heyətin kütləvi dizenteriyaya yoluxması faktını ört-basdır etməyə çalışır. Həkimlərin ilkin qənaətinə görə, aprelin 14-də axşam yeməyində əsgərlərə verilən keyfiyyətsiz və istifadəyə yararsız ət xəstəliyə səbəb olub.

Baş vermiş hadisə N.Paşinyan rejiminin guya şəxsi heyətə yüksək keyfiyyətli qida məhsulları verilməsi barədə təbliğatını iflasa uğratmaqla yanaşı, düşmən ordusunda təminatın hələ də çox pis vəziyyətdə olmasına növbəti sübutdur.

Koronavirus infeksiyası ilə bağlı karantin rejimi dövründə belə bir faktın ortaya çıxması, övladları ilə əlaqə yaratmaq imkanından məhrum edilən ermənistanlı valideynlər arasında daha böyük narazılığa səbəb olub.

Ermənistan Müdafiə Nazirliyi kütləvi dizenteriyaya yoluxma faktı ilə bağlı nə ictimaiyyətə açıqlama verir, nə də nigaran valideynlərin müraciətlərini cavablandırır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti cinayət hadisəsi baş verib.

İşğal altında olan Mardakert yaşayış məntəqəmizdə xidmət edən əsgərlərdən biri Hraç Yeğnazaryan xidmət yerinin dəyişdirilməsinə etiraz əlaməti olaraq bıçaqla qollarını "doğrayıb".

Hərbi qulluqçu H.Yeğnazaryan köhnə xidmət yerində qalmaq və sürücü olaraq xidmət etmək üçün zabitlərdən birinə külli miqdarda rüşvət ödəyib.

Özünə xəsarət yetirən hərbi qulluqçu təcili olaraq Xankəndinə hospitala göndərilib. İlk olaraq komandanlıq H.Yeğnazaryanın "əsəb xəstəsi olduğu üçün özünə xəsarət yetirdiyini" iddia etməklə faktı ört-basdır etməyə çalışıb.

Lakin qohumlarının Müdafiə Nazirliyinin qaynar xəttinə zəngindən sonra hərbi polis məcbur qalaraq, faktla bağlı araşdırma aparmağa başlayıb. Hərbi polisə verdiyi izahatında 5-ci bölüyün komandiri A.Tiqranyan faktı təsdiq edib.

Faktla bağlı araşdırmalar davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Fiziki hazırlıq*

# Yüksək fiziki hazırlıq qələbəni sürətləndirir

Gənclərin sağlam olması gələcəyin uğurlu olması deməkdir. Əbəs yerə deyil ki, ölkəmizdə gənc nəslin sağlam ruhda böyüməsi, fiziki cəhətdən sağlam olması ən punktual məsələlərdən biridir. Dövlətimizin təməl prinsiplərindən biri olan gənclərimizin sağlam olmasında mühüm rol oynayan faktor onların gündəlik fəaliyyətində idmana xüsusi yer verməsi ilə birbaşa əlaqəlidir. Gənclərin idmana olan marağının artması fonunda ölkə rəhbərliyi təhsil müəssisələrində idman zallarının, ölkə ərazisində yüksək tələblərə cavab verən idman komplekslərinin tikilməsini xüsusi diqqətdə saxlayır. İdmançılarımız mötəbər turnirlərdə iştirak etməklə yanaşı, dünyanın aparıcı idman ustaları da ölkəmizdə keçirilən beynəlxalq yarışlarda iştirak edir. İnsan həyatının vacib tərkib hissəsi olan idmana diqqət ordumuzda da təqdirəlayiq səviyyədədir. Ordumuzun şəxsi heyətinin fiziki göstəricilərinin nəzarətdə saxlanması üçün istər hərbi hissələrdə, istərsə də digər hərbi təyinatlı müəssisələrdə yüksək tələblərə cavab verən idman şəhərcikləri və trenajor zalları tikilir, istifadəyə verilir.



Ezamiyyətdə olduğumuz hərbi hissədə şəxsi heyətin idman meydançasında səliqəli şəkildə düzüldüyünün şahidi olduq. Dərs rəhbəri şəxsi heyəti normativlərlə tanış etdikdən və isinmə-gərilmə hərəkətlərindən sonra əsgərlər alətlərin qarşısında düzüldülər. Gənc əsgərlər normativlərə uyğun olaraq çalışmaları icra etdilər. Dərs prosesi başa çatdıqdan sonra əsgərlərlə həmsöhbət olduq.

Əsgər Rza Rzazadə fiziki hazırlığın döyüş hazırlığı ilə qarşılıqlı əlaqəsindən danışdı. "Məlumdur ki, döyüş hazırlığı ilə fiziki hazırlıq qarşılıqlı vəhdət təşkil edir. Döyüşdə qələbəni sürətləndirən amillər sırasında fiziki hazırlığın xüsusi önəmi var. Yüksək fiziki göstəricilər əsgərlərin onlara verilən tapşırıqların öhdəsindən çevik və cəld şəkildə gəlməsində mühüm rol oynayır. Komandirlərimiz bölməmizdə şəxsi heyətin fiziki hazırlığını daima nəzarətdə saxlayır. Hərbi hissəmizdə şəxsi heyətin müntəzəm idmanla məşğul olması üçün müasir idman şəhərciyi var. Döyüşə hər zaman hazır olmalıyıq, qalib olmaq üçün isə hazırlığımız yüksək səviyyədə olmalıdır. Komandirlərimiz bizim əsl döyüşçü kimi formalaşmağımıza diqqət yetirirlər. Silahla döyüşməyi bacardığımız qədər, silahsız da döyüşməyi komandirlərimiz bizə öyrədir. Düşmənlə ola biləcək əlbəyaxa mübarizədə onu məğlub etmək üçün fiziki göstəricilərin gərək yüksək olsun. Bunun üçün də öz üzərimizdə daim çalışırıq.

Əsgər Murad Məmmədli də fikirlərini bizimlə bölüşdü. "Bu gün ordu sıralarında xidmət edən əsgər kimi hər birimiz müqəddəs amala xidmət edirik. Komandirlərimizin keçdiyi dərsləri maraqla öyrənir, intizamla xidmət edirik, tapşırıqların öhdəsindən vaxtlı-vaxtında gəlirik. Tapşırıqları operativ şəkildə yerinə yetirmək üçün fiziki güc vacib rol oynayır. Komandirlərimizin rəhbərliyi altında keçirilən fiziki hazırlıq dərslərində fəal iştirak edirik, öz sağlamlığımızı, immunitetimizi idman edərək daha da möhkəmləndiririk. İdman təkcə hərbi xidmətdə deyil, bizim gündəlik həyatımızda da sağlamlığımızı təşkil edən vacib amillərdən biri sayılır. Millətin sağlam olması dövlətin gücü olması deməkdir. Müharibə şəraitində olan dövlətimizin müdafiəçisi olaraq, biz əsgərlər döyüş, ixtisas hazırlığından əlavə fiziki hazırlığımızı da yüksəltməliyik. Xidməti dövrümüzdə komandirlərimizin tapşırıqlarını vaxtında və operativ yerinə yetirməyimiz birbaşa fiziki göstəricilərlə bağlıdır."

Əsgər İlyas Qədirov Sumqayıt şəhərindən həqiqi hərbi xidmətə çağırılıb. Müsahibim söhbəti zamanı bildirdi ki, hərbi xidmətə gəlməmişdən əvvəl idmanla məşğul olub və xidmət etdiyi hərbi hissədə yaradılan şərait onun fiziki göstəricilərini nəzarətdə saxlaması üçün çox əlverişlidir. "Hərbi xidmətə gəlməzdən əvvəl turnik, paralel qollarda müxtəlif çalışmaları yerinə yetirməyə həvəsim var idi. Ordu sıralarına daxil olduqdan sonra da bu vərdişlərimi davam etdirirəm. İdman şəhərciyimizdə fiziki məşğələləri icra etmək üçün hər cür şərait var. Müasir avadanlıq və idman alətləri ilə təchiz olunmuş idman meydançamızda günün nizam qaydasına uyğun olaraq dərslərimiz təşkil olunur ki, bu dərslər bizim fiziki hazırlığımızın yüksəlməsində mühüm rol oynayır. Komandirlərimizin rəhbərliyi altında fiziki hazırlıq məşğələlərində həvəslə iştirak edir, bədən tərbiyəsini daim nəzarətdə saxlayırıq. Həftənin müəyyən olunmuş günlərində komandirlərimiz tərəfindən yarışlar təşkil olunur. Yarışlar yoldaşlıq mühitində keçirilsə də, hər birimiz qalib olmaq əzmi ilə mübarizə aparırıq."

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Spyder" zenit-raket kompleksi



Yaxın məsafəli "Spyder" (Spayder) zenit-raket kompleksi İsrailin "Rafael" və Aircraft Industries (İAİ) şirkətləri tərəfindən hazırlanıb. Onun ilk variantı 2005-ci ildə Le Burjedə Parij aviasalonunda nümayiş etdirilib.

Zenit-raket kompleksinin tərkibinə kəşfiyyat və idarəetmə məntəqəsi, dörd ədəd zenit idarə olunan nəqliyyat-buraxıcı konteynerlə birlikdə özüyeriyən buraxıcı qurğu və nəqliyyat-təchizat maşını daxildir. "Spyder" zenit-raket kompleksinin elementləri "Tatra" avtomobilinin şassisi üzərində quraşdırılıb. Kompleksin batareyasının tərkibinə altı ədəd özüyeriyən buraxıcı qurğu daxil edilə bilər. Onun dairəvi görünüşlü radiolokasiya sistemi 35 kilometrlik məsafədə yerləşən hədəfləri aşkar etməyə qadirdir. Eyni vaxtda 60-a yaxın hədəfi müşayiət edə bilir. Radiokanal vasitəsilə komandanı həyata keçirir.



"Spyder"də "Derby" idarəolunan raketdən istifadə edilir ki, onun da hədəfi məhvetmə uzaqlığı 35 kilometrə, məhvetmə hündürlüyü 20 metrdən 16 kilometrə qədərdir. Burada aktiv özütuşlama radiolokasiya başlığından və mərmi-fuqas döyüş hissələrindən istifadə edilir. Daha bir idarəolunan "Pyton 5" raketidir ki, onun hədəfi məhvetmə uzaqlığı 20 kilometr, məhvetmə hündürlüyü isə 20 metrdən 9 kilometrə qədər təşkil edir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə və İraqın şimalında PKK-ya məxsus cəbhəxanalar aşkarlanıb




Türkiyənin Batman vilayətinin Kozluk rayonunda PKK terror təşkilatına qarşı mühüm antiterror əməliyyatı keçirilib.

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilir ki, PKK-ya məxsus böyük cəbhəxana aşkarlanıb. Daha bir antiterror əməliyyatı isə Hakkari vilayətinin Çukurca-Kazan vadisində həyata keçirilib. Uğurlu əməliyyatda zərərsizləşdirilən üç terrorçudan biri Kava ləqəbli təhlükəli terrorçu Məhəmməd olub. Bildirilir ki, zərərsizləşdirilən terrorçu ötən il iyunun 1-də hərbi qulluqçular Ercan Sanca və Mehmet Sait Barışın ölümünə səbəb olan terrorçu hücumunda iştirak ediblər. Bu bölgədə də terrorçulara məxsus silah və sursat ələ keçirilib.

Milli Müdafiə Nazirliyinin məlumatında isə qeyd olunub ki, PKK-ya məxsus daha bir silah anbarı İraqın şimalında aşkarlanıb.

## İspaniya İraqdakı qoşunlarının əsas bazasını bağlayacaq



İyulun axırlarında İspaniya İraq paytaxtından cənub-şərqdə yerləşən Besmaya bazasındakı qoşunlarını oradan çıxaracaq. İspaniyanın İraqdakı 530 hərbi qulluqçusundan 350 nəfəri pandemiyadan əvvəl həmin bazada yerləşdirilib.

Hərbi mənbələrdən alınan məlumata görə, qoşunların həmin bazadan çıxarılmasının səbəbi İraq ordusu və polisinin iri bölmələrinin hazırlanması üzrə vəzifələr artıq yerinə yetirilib.

Helikopter dəstələrinin sayı əhəmiyyətli dərəcədə azaldılacaq, çünki "Chinook" markalı üç hərbi nəqliyyat helikopteri modernləşdirilmək üçün İspaniyaya qayıtmalıdır. Beləliklə, İspaniyanın İraqda qalan hərbi kontingentinin sayı 200 nəfərdən az olacaq.

İspaniya Müdafiə Nazirliyi başqa yerlərdə olan qoşunlarını da çıxarmağa hazırlaşır. NATO missiyası çərçivəsində Əfqanıstanda dislokasiya edilmiş bütün ispan hərbi qulluqçularının qaytarılması bu ilin sonu və ya gələn ilin əvvəli üçün planlaşdırılıb.

## Çin istehsalı olan hərbi aviadaşıyıcı gəmi dəniz sınaqlarına başlayıb



Çin istehsalı olan "Şandon" adlı ilk aviadaşıyıcı dənizdə sınaqlara başlayıb.

Bu barədə Çin Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, sınaqlar Çin hərbi dəniz qüvvələrinin illik yoxlama planına uyğun olaraq həyata keçirilir. Bu, "Şandon"un ötən ilin dekabrında silahlanmaya daxil edilməsindən sonra ilk sınaq səyahətidir. Dəniz sınağı təyyarədaşıyan gəminin silah və texniki imkanlarının yoxlanılmasına, onun hazırlıq səviyyəsinin yüksəldilməsinə və dənizçilərin qarşıya qoyulmuş vəzifə və tapşırıqları yerinə yetirmək qabiliyyətinin daha da artırılmasına yönəlib.

Qeyd edək ki, tikintisi 2013-cü ilin noyabrında başlayan "Şandon" gəmisi son hazırlıq və sınaqlardan sonra 2019-cu ilin dekabrında istismara qəbul edilib. "Şandon" bütünlüklə Çinin yerli sənayesinin gücü ilə istehsal edilən ilk aviadaşıyıcı gəmidir. Uzunluğu 315 metr, eni 75 metr, çəkisi 70 min ton olan gəmi göyərtəsində 36 qırıcı təyyarə daşıya bilər. Çinin hərbi dəniz qüvvələrinin arsenalında "Lyaonin" adlı daha bir təyyarədaşıyan gəmi də var. O, 1990-cı illərin sonlarında Ukraynadan alınan "Varyaq" aviadaşıyıcı kreyserin bazasında hazırlanıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 369
Nüsxə 3960